# <u>*Türkiyəli ekspert:*</u> "Qəbələdə keçirilən Zirvə görüşü yeni dövrə doğru strateji addımdır"

**Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü türk dünyasının inkişafında yeni dövrə doğru atılan strateji addım oldu. Azərbaycandakı müzakirələr təşkilatın Bişkek sammitində əldə olunan nailiyyətləri möhkəmləndirərək, TDT-nin siyasi birliyini gücləndirib, türk ölkələrinin iqtisadi inteqrasiyasına və mədəni konsolidasiyasına təkan verib.**




Bu fikri AZƏRTAC-la söhbətdə Ankarada fəaliyyət göstərən Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) analitiki Hazel Çağan Elbir söyləyib.

Onun sözlərinə görə, Qəbələ Zirvə görüşü TDT-nin təkcə regionda deyil, həm də qlobal miqyasda "yüksələn güc" olduğu faktını nümayiş etdirdi. "Türk dövlətləri ailəsi"nin mövcudluğunun anlamı dünya miqyasında daha çox hiss olunur", - deyə o, TDT-ni türk ölkələri arasında onlarla müxtəlif sahədə əməkdaşlıq üçün tələb olunan platforma adlandırıb.

Ekspert ÜDM-i 2,1 trilyon dollara çatan türk ölkələrinin iqtisadi potensialına, TDT ölkələri arasında ticarət dövriyyəsinin artdığına da diqqət çəkib, türk dövlətləri tərəfindən həyata keçirilən və təşkilatın qlobal nüfuzunu artıran çoxsaylı nəqliyyat və enerji layihələrini sadalayıb.

Onun sözlərinə görə, Qəbələdə keçirilən 12-ci TDT Zirvə görüşü türk ölkələrinin siyasi, iqtisadi və mədəni inteqrasiyasını inkişaf etdirmək üçün çox mühüm şansdır. Analitik Qəbələdə keçirilən TDT Zirvə Görüşündə özünü büruzə verən Azərbaycanın strateji liderliyi amilini vurğulayıb. "Ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonrakı dövrdə Azərbaycanın TDT məkanında mərkəzi rolu daha nəzərəçarpan olub", - deyə o əlavə edib və Qəbələ Zirvə görüşünün türk ölkələri üçün ortaq gələcəyə ümidləri gücləndirdiyini vurğulayıb.

Azərbaycan. - 2025.- 9 oktyabr (№ 217).- S.9.